# Mədəniyyət insanın ruhunu qidalandıran ən dəyərli sərvətdir

*Tarixi yaddaş, keçmişin izi, milli irsin parlaq nümunələri - bütün bunlar muzeylərin divarları arasında yeni nəfəs alır, ziyarətçilərin qəlbində həyati əhəmiyyət kəsb edən duyğular oyadır. Muzeylər sadəcə eksponatlar toplusu yox, xalqın keçmişinə açılan qapılardır, zamanla dialoq qurmağın vasitəsidir. Hər bir sənəd, fotoşəkil və ya yadigar əşya öz hekayəsini danışır, mədəniyyətimizin zənginliyini və dərinliyini gözlər önünə sərir. Bu baxımdan fərdi təşəbbüslərlə yaradılan muzeylər də eyni dərəcədə önəmlidir: onlar gəncləri milli irsi toplamağa və qorumağa ruhlandırır, turistlərə vətənimizin tarixini öyrənmək üçün bir pəncərə açır.*

*Azərbaycanın zəngin tarixi irsini qorumaq və gələcək nəsillərə çatdırmaq məqsədilə Dilqəm Əhməd fərdi muzey açmaq təşəbbüsü ilə çıxış edib. On ildən artıqdır ki, o, Azərbaycan Cümhuriyyəti və mühacirət dövrünə aid nadir sənədlər, fotoşəkillər, pasportlar və digər yadigar əşyaları diqqətlə toplayır, arxivləşdirir və sərgilər vasitəsilə xalqla paylaşır.*

*Araşdırmaçı, jurnalist, kolleksiyaçı Dilqəm Əhmədin təşəbbüsü təkcə eksponatların qorunmasına yönəlməyib. O, gəncləri milli irsə maraq göstərməyə, toplama və araşdırma işlərinə cəlb etməyə çalışır. Fərdi muzey həm ölkə daxilində, həm də xaricdə ziyarətçilər üçün unikal bir mədəni məkan olacaq, onların tariximizi daha yaxından öyrənməsinə imkan yaradacaq. Bu layihə eyni zamanda Dilqəm Əhmədin şəxsi səylərinin xalq və dövlət marağı ilə necə üzvi şəkildə birləşə biləcəyini göstərən nümunəvi bir təşəbbüs kimi dəyərləndirilir.*

*Bakıvaxtı.az Çapar - Milli İrsin Tədqiqi Mərkəzinin sədri Dilqəm Əhmədlə həmsöhbət olaraq həm tədqiqatları, həm də təşəbbüsləri ilə bağlı fikirlərini öyrənib.*

*Müsahibəni təqdim edirik.*

**- Muzeydə nadir və heç kimin görmədiyi hansı eksponatları təqdim edəcəksiniz?**

- Mən on ildən çoxdur ki, Azərbaycan Cümhuriyyəti və onun davamı olan mühacirət tariximizlə bağlı nadir materiallar toplamaqla məşğulam. Bu materialları əsasən Türkiyədən əldə edirəm, eləcə də bəzi xarici ölkələrdəki auksionları da mütəmadi olaraq izləyirəm. Eyni zamanda tanış olduğum bəzi mühacir ailələr də nadir nümunələri təqdim ediblər. Beləcə maraqlı eksponatların olduğu fərdi bir muzey açacaq qədər material toplamışam. Mənim şəxsi arxivimdə ləri ilə birgə görüşünə dair bir-birindən maraqlı fotoşəkillərə sahibəm.

**- Amma deyəsən, arxiviniz daha çox mühacirət dövrü ilə bağlıdır...**

- Doğrudur. buraya çoxsaylı fotoşəkillər, məktublar, imzalı kitablar, jurnallar və sair daxildir. Əhməd bəy Ağaoğluna dair ayrıca bir arxivə sahibəm ki, xəyalım onun ev-muzeyinin Şuşada açılmasına dəstək olmaqdır.

Kolleksiya toplamaq ideyasına gəldikdə isə təxminən on il qabaq kolleksiyaçı həmkarım mənə Ağaoğluya aid bir fotoşəkil hədiyyə etdi, bundan sonra məndə bu işlərə böyük maraq yarandı.







Təhsillə bağlı Türkiyəyə köçdükdən sonra isə xəzinənin qapısı açılmış oldu. Türkiyədəki əksər auksionları izlədim, bukinistləri gəzdim, mühacir ailələrlə görüşdüm. Nəticədə yüzlərlə eksponat topladım, bu proses hazırda da davam etməkdədir.

**- Sizcə, belə bir muzeyin mövcudluğu ölkəmizdə və ya regionda mədəni həyat üçün nə qədər vacibdir?**

- Bilirsiniz, hər dövlətdə olduğu kimi ölkəmizdə də zəngin muzeyçilik ənənəsi var, bir-birindən maraqlı muzeylərimiz var. Mənim üçün ən başda gələn Milli Azərbaycan Tarixi Muzeyi və İstiqlal Muzeyidir. Çünki hər ikisində Azərbaycan 1918-1920-ci illərdə mövcud olmuş ilk respublika dönəminə aid bir sıra dəyərli eksponatlar mövcuddur. Məsələn, Cümhuriyyətin orijinal gerbi, parlament açıldığı zaman millət vəkillərinə təqdim edilən xatirə jeton, Cümhuriyyətin xarici pasportu, eləcə də həmin illərə aid nadir fotoşəkillər kolleksiyamda yer alıb.



Arxivimdəki fotoşəkillər arasında Cümhuriyyətin Tehran səfirliyinin açılışı, istiqlaliyyətin birinci ildönümü, Rəsulzadənin sədrliyində Azərbaycan nümayəndə heyətinin Osmanlı təmsilçi-





Cümhuriyyətinə, mühacirət tarixinə, istiqlal tariximizə dair saysız-hesabsız materiallar var. Həmin muzeylərlə əməkdaşlıq edirəm, arxivim hər ikisində sərgilənib.

**- Bu baxımdan arxivinizi bu iki muzeydən birinə hədiyyə etmək fikriniz varmı?**

- Mən fərdi muzey təşəbbüsü göstərməklə gəncləri milli irsimizi toplamağa həvəsləndirmək istəyirəm. Görsünlər ki, bir insan istədiyi təqdirdə bu qədər materialı toplaya, Vətənə gətirə bilər. Bu baxımdan fərdi muzey açmaqla xaricdə yaşayan gəncləri bu işə həvəsləndirmiş olacağam, digər tərəfdən turistlərin də marağına səbəb olacağam. Onlar müsəlman şərqində qurulmuş ilk respublikanın tarixini asanlıqla öyrənəcək, dövrə aid materialları görə biləcəklər.

Mən Bakıda 30-dan çox sərgi keçirmişəm, insanların necə maraq göstərdiyini bilirəm. Bu ilin may ayında Vaşinqtonda və Nyu-Yorkda da sərgim oldu. Oradakı soydaşlarımız da çox maraqla qarşıladılar.

Amma sərgilər həm yorucudur, həm də materialların zədələnməsinə səbəb ola bilir. Ona görə də modern və klassik muzey anlayışını bir araya gətirib bir muzey təşkil etmək istəyirəm. Muzeyin dizaynı, sərgi salonunun hansı standartlarda olması kimi anlayışlar asandır. Bu sahədə təcrübəsi olan insanlar, eləcə də Türkiyədə gördüyüm nümunələr var. Hazırda tək problem məkandır. Çünki muzey yeri kirayə ola bilməz. Komandamızla birgə muzeyi xüsusi dizaynla hazırlayacağıq. Ona görə də öncə dövlətimizdən xahiş edirəm ki, fərdi muzeyimi qurmaq, vətəndaşlarımıza, xarici qonaqlarımıza mədəni xidmət etmək üçün bizi məkanla təmin etsin. Eləcə də iş adamlarımız da bu şəraiti yarada bilər. Unutmayaq ki, ötən əsrdə Tağıyev olduğuna görə milli mətbuatımız, cəmiyyətlərimiz formalaşmışdı. Biz elm adamıyıq, işimiz kitablar, sənədlərdir. Bu baxımdan biznesmenlərimiz cəmiyyət yararına olan bu kimi fəaliyyətlərimizə dəstək olsalar, tarixi məsuliyyətlərini də yerinə yetirmiş olarlar. Mənim üçün böyük, onlar üçün kiçik addımlarla bu işi həyata keçirə bilərik.

**- Muzey ziyarətçilərinə hansı mesajı və ya duyğunu çatdırmaq istəyirsiniz?**

- Mən sərgilərimdə insanların Cümhuriyyət dövrünə aid materiallara necə həvəslə baxdıqlarını görmüşəm. Onların gözlərindəki parıltını sezmişəm. Amma sərgilərdə bütün materialları təqdim etmək imkanı olmur. Hər dəfə sərgi keçirmək də olmur. Ona görə də muzeyin yaradılması, eləcə də virtual versiyasının da hazırlanması çox mühüm iş olacaqdır. Mənim indiyədək yığdığım eksponatlara vətəndaşlarımız çox dəstək göstəriblər. Kampaniyalar keçirmişəm, milli irsimizi qorumaq istəyənlər dəstək olublar. Əldə etdiyimiz materialları həm də kitablar yazaraq təqdim etmişəm. Ona görə də insanlar mənim səmimiliyimə əmindirlər.

Bu muzey mənim şəxsi biznesim olmayacaq ki. Vətəndaşların maraqla ziyarət edəcəyi bir məkan olacaq. İnanıram ki, dövlətimiz, iş adamlarımız bu işdə mənə kömək edəcəklər, mən də yeni materialları əldə etmək üçün daha həvəslə çalışacağam.